# Soyuq iqlimin cənub günəşi



***Şəddat CƏFƏROV,***
***iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,***
***Azərbaycan və Rusiya Yazıçılar***
***və Jurnalistlər Birliklərinin üzvü,***
***Beynəlxalq Yazarlar Birliyinin üzvü***

Siyasi hadisələr nə qədər gərgin psixoloji durum yaratsa da, təbiət kataklizmləri, təbiətin sərt üzünü göstərən hadisələri insanları nə qədər sarsıtsa da, yenə də ədəbiyyat, incəsənət, söz sənətinə sevgi, hətta baş verənlərin sözlə emosiyonal ruhla təsviri insanların diqqətindən kənarda qalmır. Adamlar öz münasibətlərini müharibə törədənlərə yenə sözlə bildirirlər. Bu zaman, əlbəttə, insanların ruhuna təsir edən söz, yəni bədii söz daha üstün tutulur.

Nə qədər ki, insanlar sözə sevgi bəsləyəcəklər, bir o qədər də cəmiyyətdəki ziddiyyətlər cəmiyyəti məhv edəcək həddə çata bilməyəcək. Çünki söz anti insani qüvvələrin qarşısında ən ciddi sədlərdən biridir.

İndi Qarabağ hadisələrini yada salıram. 30 il düşmən torpaqlarımızı talan etdi, faydalı qazantılarımızı torpağın təkindən yığıb apardı. Bütün bunlar bir tərəfə. Düşmənin vəhşiliyinin ən ifrat təbiəti yer üzündən silinmiş böyük şəhərlərimizin xarabalıqlarında daha aydın görünür. Açığı, dünyanın da ikili mövqeyi hər kəs kimi mənə də pis təsir edir. Axı necə ola bilər ki, işğalçı bir dövlət beynəlxalq qurumlar tərəfindən təhdid olunmasın, cəzalandırılmasın, sərt təzyiqlərə, sanksiyalara məruz qalmasın. Hər halda bütün bunlar həyat faktlarıdır.

Düşmən elə bilir ki, cəzasız qalacaq. Ancaq düşmənin özü də yaxşı başa düşməlidir ki, onlara ən sərt cəzanı, layiqli cəzanı ordumuz verdi. Ali Baş Komandanın ifadə etdiyi kimi “dəmir yumruq” yağılara xalqımızın gücünü göstərdi. Bunlar öz yerində. Amma daha bir güc diqqətdən kənarda qalmamalıdır, bu da Azərbaycan ziyalısının, yazıçısının, şairinin, sənətkarının yağıların iç üzünü açmağa qadir olan əsərlər yaratmasıdır. Belə sənətkarlardan biri də Moskvada yaşayıb-yaradan Ulduz Qasımdır.

Ulduz Qasımın necə sənətkar olduğunu mən Əli Rza Xələflinin onun yaradıcılığına həsr olunmuş “Yazıçının vətən dağı” adlı iki cildliyini nəşrə hazırlayarkən bildim. Çünki iki cilddən ibarət yazıçı Ulduz Qasımın nəsr yaradıcılığını ədəbi-tənqidi müstəvidə göstərən kitabda, demək olar ki, sənətkarın bütün əsərləri xronoloji ardıcıllıqla təhlilə çəkilib. Xasiyyətimə uyğun olaraq nəşrə hazırlanan kitabı diqqətlə vərəqləyirəm. Mənə maraqlı görünən hissələri işarələyirəm, çox vaxt bu işarələnmiş hissələrin elə kənarındaca düşüncələrimi qısa şəkildə qeyd edirəm. Onu da deyim ki, xüsusi marağım və diqqətimlə bu qeydləri aparsam da, son nəticədə bunları yazıya çevirəcəyimi məqsəd kimi götürmürəm. Bu, mənim nəşrə hazırladığım kitabdan aldığım estetik zövqün təsiri altında aldığım təəssüratdır.

Yeri gəlmişkən burada bir-iki məqama da diqqəti çəkmək istəyirəm. Axı mən dəfələrlə demişəm ki, yazıçılarla, ədəbiyyat adamlarıyla, xüsusilə şairlərlə həmişə ciddi ünsiyyətim olub. Bir çoxlarının kitablarını vərəqlədikcə aldığım estetik zövqdən məmnun olmuşam. Həmişə düşünmüşəm ki, kaş düşüncələrimi qələmə almaq imkanım olaydı. Belə bir imkanı nəhayət mən, “Kredo” qəzeti ilə isti münasibətim sayəsində əldə etdim. Qəzetin baş redaktoru ilə dostluğum, ünsiyyətim mənə imkan verirdi ki, nəşr olunan kitablar haqqında fikirlərimi bölüşüm. Redaktorun “Elə düşündüklərinizi yazsanız, təkcə naşir kimi yox, həm də publisist kimi cəmiyyətimizə böyük xidmətlər göstərmiş olarsınız” sözləri duyğu və düşüncələrimi səfərbər etməkdə mənə yardımçı oldu.

Mən “Kredo” qəzeti redaksiya heyətinin üzvüyəm. Axı dedim ki, qəzetlə sıx ünsiyyətim var. Hər bir sayı diqqətlə oxuyuram. Hətta tamam başqa bir müəllifin yazısı ilə bağlı redaktorla aramızda diskusiyalar da olur. Fikirlərimizi bir-birimizlə aydınlaşdırırıq və bu da qəzetin xeyrinə olur. Beləliklə, 2022-ci il boyu Ulduz Qasımın yaradıcılığı ilə bağlı yazıları ardıcıl izləməli oldum. Mənə aydın oldu ki, Ulduz Qasım Moskvada yaşasa da, vətənlə əlaqələrini kəsmir. Demək olar ki, sərhədlərimizdə, Qarabağda, ölkə içində nə baş verirsə, onun hamısını Ulduz Qasım izləyir. Bir sözlə, vətənlə bağlı məlumatları özünün mənəviyyat bazasına yığır. Elə bunun nəticəsidir ki, az qala Moskvada yaşaması 40 ildən çox olsa da, Azərbaycanla bağlı, xüsusilə Qarabağ hadisələrini bütün dəhşətləri ilə əks etdirən çox dəyərli romanlar qələmə alıb.

Ulduz Qasımın yaradıcılığını yaxından öyrənmək Qarabağ hadisələrinin bütün mahiyyətini dərk etməkdə ən yaxşı vasitə olardı. Beləliklə, il boyu birər-birər oxuduğum yazıları Xələfli bir kitaba (iki cilddə) cəm elədi. Əvvəlcə biz kitabın nəşri üçün maraqlı bir annotasiya hazırladıq. Və bu annotasiyada kitabın əhatə etdiyi mahiyyəti göstərməyə çalışdıq: “*Şair-publisist Əli Rza Xələflinin* “Yazıçının Vətən dağı” *(Ulduz Qasımın nəsr yaradıcılığı ədəbi-tənqidi düşüncələr müstəvisində) iki cildlik kitabının birinci cildinə sənətkarın yaradıcılığının birinci və qismən ikinci dövrləri haqqında ədəbi-tənqidi qeydləri toplanmışdır. Ulduz Qasımın nəsr yaradıcılığının bütöv mənzərəsi bədii ədəbiyyatımızda Qarabağnamələrin ən dəyərli nümunələrini özündə ehtiva edir. Müəllif yazıçı Ulduz Qasımın Azərbaycan həqiqətlərinin bədii düşüncəyə gətirilməsində fədakarlığının - zəhmətinin bəhrəsini yüksək ədəbi-tənqidi müstəvidə dəyərləndirməyə çalışmışdır*”. Göründüyü kimi, müəllif kitaba maraqlı ad da seçib; “Yazıçının vətən dağı”. Şübhəsiz, hər bir söz bilən şəxsə məlumdur ki, burada vətən dağı ifadəsi özünün həqiqi mahiyyətindən çıxır, məcazi məzmun kəsb edir.

Ulduz Qasım vətən sevdalı bir sənətkardır. O, vətənin hər bir yarasının göynəmini öz canında hiss edir və bu göynəmi də elə öz əsərlərində kifayət qədər qabarıqlığı, ağrısı, acısı ilə verə bilir.

Hər bir bədii əsər artıq faktdır. Bu faktı, yəni bədii əsəri qavramaq, yazıçının demək istədiklərini dərk etmək tənqidçidən, publisistdən xüsusi fəhm istəyir. Kitabın redaktoru və “ön söz”ün müəllifi Elçin Mehrəliyev öz ustadı akademik Bəkir Nəbiyevinədəbi fakta münasibətini xüsusilə diqqətə çəkir: “*Görkəmli ədəbiyyatşünas-tənqidçi Bəkir Nəbiyev bədii əsərlərin ədəbi-tənqidi müstəviyə çəkilməsində fakt və bu faktı yaradan şəraiti xüsusilə diqqətdə saxlayırdı. Görkəmli tənqidçinin qənaətinə görə bədii fakt həyat həqiqəti ilə, yəni həyat faktı ilə təsdiqlənmirsə, bunun uğurunu mübahisəli hesab edir və bu barədə ayrı-ayrı yazılarında da fikirlərini bildirirdi.*

*Mən Ə.R.Xələflinin yazıçı Ulduz Qasımın nəsr yaradıcılığını ədəbi-tənqidi düşüncələr müstəvisinə gətirən tədqiqatını diqqətlə oxuyuram. Müəllif tanınmış yazıçının yaradıcılıq yolunu xronoloji ardıcıllıqla izləməyə üstünlük verir. Bu xronoloji ardıcıllıq ona imkan verir ki, bədii faktı yerinə görə həyat və zaman həqiqəti ilə müqayisəyə çəksin*”. Bundan sonra yazıçı ədəbiyyatşünas Elçin Mehrəliyevin yazıya gətirdiyi mülahizələri belə bir fikri aydınlaşdırır ki, “Yazıçının vətən dağı” kitabının müəllifi bütün yazılarında ədəbi fakta güvənir. Sənətkarın yaratdıqlarının əsasında öz düşüncələrini oxucularla bölüşür. Özü də Elçin Mehrəliyevin “Yazıçının vətən dağı” kitabı ilə bağlı qeydlərindən məlum olur ki, o, Ulduz Qasımı hələ gənclik illərindən tanıyır. Onun istedadlı bir gənc olduğunu hələ tələbəlik dövrlərindən hiss etmiş və ona hər cür mənəvi dəstəyini əsirgəməmişdir. Yaxşı olar ki, elə Elçin Mehrəliyevin bu ilk tanışlıqla bağlı qeydlərini oxuculara da çatdırım. Elçin Mehrəliyev yazır: “*Onu da deyim ki, mən Ulduz Qasımı hələ ötən əsrin 80-ci illərindən tanıyıram - «Azərbaycan gəncləri» qəzetində işlədiyim dövrdən. O vaxt U.Qasım jurnalistika fakültəsinin tələbəsi idi. Yaza bilən, qələm işlədə bilən istedadlı tələbə kimi müəllimlərin diqqətini cəlb etmişdi. Yəqin ki, elə bu səbəbdən də iş yerimə gəlib haqqımda yazmaq istədiyini bildirmişdi. O vaxt bir səmimi təvazökarlıq vardı. Mən də elə bu təvazökarlıq hisslərinin təsiri altında haqqımda yazmağın hələ tez olduğunu ona bildirsəm də, inadından dönmədi. O dövrün iş şəraitinə uyğun olaraq qısa müddət ərzində söhbətimizin təəssüratı əsasında «Müxbir» jurnalında çox səmimi bir yazı ilə çıxış elədi. Yeri gəlmişkən bunu da deyim ki, bu gün həmin jurnalın yaşarı ənənələri əsasında yeni nəşri mətbuatımız üçün çox dəyərli olardı. Əlbəttə, sözüm bunda deyil, əsas odur ki, Ulduz İmanova (bəli, o vaxt soyadı belə gedirdi) ilk gəncliyindən sözünə inamlı idi. Söz onun varlığında xüsusi cazibə qüvvəsi kimi təzahür edirdi. O, yazmaq, yaratmaq üçün can atırdı və kifayət qədər yazı təcrübəsi də vardı. Hələ universitetin jurnalistika fakültəsinə qəbul olunana qədər doğulub böyüdüyü Cəbrayıl rayonunda dərc olunan «Kolxozçu» qəzetində və bəzi respublika qəzetlərində də yazıları nəşr olunmuşdu*”. Görkəmli yazıçı ədəbiyyatşünasın bu qeydləri Ulduz Qasımın ədəbiyyata gəlişinin gənclik çağlarına işıq salır. Beləliklə, biz kitabda verilmiş ədəbi-tənqidi materialların “ön söz”də maraqlı təhlilinə də rast gəlirik. Məlum olur ki, Ulduz Qasım Qarabağ xronikasının bədii salnaməsini yaratmağa başlayarkən artıq istedadlı bir gənc kimi tanınmışdır. Onun “Mən aşiqəm Qarabağda” məqalələr toplusu, sonra sentimental ruhda qələmə alınmış “Tələbə gündəliyi” kimi çox dəyərli bir povesti ədəbiyyatımıza istedadlı bir gəncin gəlişindən xəbər verir.

Ulduz Qasım hələ ilk qələm təcrübələrindən insanın mənəvi mühitinin dərinliklərinə varmaq gücünü göstərə bilib. Onun əsərlərindəki obrazlar sxematik deyil. Həyat hadisələrinə qarşı həssasdırlar. Bütün məqamlarda baş verən hadisələrə ən müxtəlif tərəflərdən yanaşa bilir, münasibət göstərirlər. Hətta ziddiyyətli məqamlarda haqlı, haqsız tərəflərin cizgilərini də qabarıq göstərə bilir. Müəllifin “Ayrılıq təəssüratı” adlı bir essesindən bir parçanı kitabın “ön söz”ünə Elçin Mehrəliyev təsadüfi gətirməyib. Kiçik bir essedə yazıçının düşüncə mühitinin nə qədər geniş olduğunu Ə. Xələfli publisistikasına xas olan bir canlılıqla qələmə alıb: “*Ulduz bədii yaradıcılığında insan xislətlərinin ən həssas tədqiqatçılarından biridir. O, xeyir və şərin bir-birinə qovuşuq halda necə yaşamasını, ümumiyyətlə, necə yaşaya bilməsini araşdıra-araşdıra həyatın dolaşmış kələfini çözərək əsərlərini yaradır. Bunun üçün onun kifayət qədər xammal ehtiyatı, yəni həyati müşahidələri var. Ulduz Qasım yaradıcılığa həyatdan və ən başlıcası, öz həyatından gələn yazıçıdır. Təsvir etdiyi adamları qanına, iliyinə qədər tanıyır. Onların hansı əxlaqi-mənəvi keyfiyyətlərin sahibi olduğunu yaxşı bilir. Onun şərə qarşı vuruşan xeyir qəhrəmanı cismən zəif olsa da, mənəvi-psixoloji baxımdan kifayət qədər güclüdür. Və belə bir obrazı biz “Qürbət zöhrəsi”ndə bütün aydınlığı ilə görürük. “Qürbət zöhrə”sinə hər tərəfdən mənəvi-psixoloji zərbələr dəysə də, o parlaqlığını itirmir, odunu-atəşini axıracan qoruyur*”. “Yazıçının vətən dağı” kitabının müəllifi bu kiçik esse ilə sanki Ulduz Qasımın yaradıcılığı haqqında nələri yazacağını, nələri göstərmək istəyini sıxılmış fikir külçəsi kimi oxucuya təqdim edir.

Kitabda “Müəllifdən” qeydi ilə Ə.Xələflinin geniş bir giriş yazısı da verilib. Yazının adına diqqət edək; “Lələdağ gücü, yaxud, Ulduz Qasımın yaradıcılıq yolu”. Əlbəttə, burada yazıçının ədəbi söz yolu yazının əsas obyektidir. Ancaq müəllif görün necə maraqlı müqayisə ilə Ulduz Qasımı oxucu yaddaşına yazır.

Lələ təpəsi, Lələ düzü mənim bildiyimə görə Qarabağın Araz qırağı düzənində yerləşir. 2016-cı ilin Lələtəpə döyüşləri həm ordumuzun nəyə qadir olduğunu göstərdi, həm də elə bu təpəni də məşhurlaşdırdı. Bəlkə heç o hadisələrə qədər xəritələrdə də göstərilməmişdi. Amma Qarabağın işğalının sona çatdığını həmin təpə uğrundakı döyüşlər hamımıza bütün aydınlığı ilə göstərdi.

***(Davamı 11-ci səhifədə)***

*(Əvvəli 10-cu səhifədə)*

Müəllif Lələdağ gücü obrazı ilə həm də Ulduz Qasımın yaradıcılığına işarə edir. Axı Ulduz Qasımgilin də kəndi elə məşhur Lələtəpə dağının yaxınlığında, Araz sahilindədir. Mehdili kəndi yaradıcı övladı Ulduz Qasımın əsərlərində əbədi yaşarlıq haqqı qazanıb. Lələ təpəsi güc-qüvvət rəmzi kimi publisistlərin, yazıçıların, şairlərin yazılarında öz obrazına qovuşdu. Yəqin ki, müəllif Lələ təpəsini Lələdağ kimi təqdim etməkdə səhv etməyib. Bütün bunları biz "Yazıçının vətən dağı" kitabından aldığımız təəssüratlar əsasında danışırıq.

Mən "Yazıçının vətən dağı" kitabını vərəqlədikcə Ulduz Qasımın sənətkar böyüklüyün daha aydın görürəm. Onu da deyim ki, ümumiyyətlə, ədəbiyyata münasibət müxtəlif dövrlərdə dalğalı olub. Bəzən kütləvi şəkildə hamı oxumağa çalışıb. Bəzən insanlar sanki oxumaqdan soyuyub. Bir qədər kitabdan, yazıdan aralı düşüb. Ancaq yazıçı Ulduz Qasımın dəsti-xətti, yaradıcılıq üslubu, hadisələrin məntiqi ardıcıllığını gözləməsi onun əsərlərini sözün həqiqi mənasında cazibə gücü ilə təmin edir. İndi tez-tez Ulduz Qasımın kitablarının təqdimatı keçirilir. Onun sənətkarlığının məziyyətləri öyrənilir. Bütün bunları Xələfli çox maraqlı şəkildə yazıya gətirir. Ulduz Qasımın oxunan yazıçı olduğuna diqqəti yönəldir: "*Sənətkar üçün əsas şərt həyatı qavramaqdır. Ayzek Əzimov adlı görkəmli bir yazıçı var ki, o, bütün həyatı boyu yazı məkanını dəyişməyib. Amma onun yaradıcılıq üfüqləri son dərəcə genişdir. Hətta insan ayağının dəymədiyi yerlərə belə nüfuz edən düşüncə sahibi olub. Bu mənada Ulduz Qasımın cismən Moskvada olması onun ruhən Azərbaycanda olmaması demək deyil. Yazıçının tarixi taleyində əsas amillərdən biri də onun oxunmasıdır, sənətkar kimi dərk olunmasıdır. Oxucu ilə yazıçı arasında isti körpünün mövcudluğudur. Ulduz Qasım cəmiyyətlə, insanlarla, keçmiş təbirlə desək, oxucularla özü arasında əsərləri ilə ünsiyyət körpüsü qurmaq gücündə olan sənətkardır. Yazıçının oxunmağı onun sənətinin yaşarı tərəfinin təsdiqidir. Bu gün Ulduz Qasım Moskvada, Azərbaycanda, Türkiyədə, İranda və Avropanın bir çox ölkələrində oxunan sənətkardır. Ən azı, azərbaycanlıların məskun olduğu dünya ölkələrindən onun əsərlərinə istək çağırışları var*". Bu çağırışları bilavasitə insanların mənəvi potensialını səfərbər etməyə istiqamətlənib. Özü də onu deyim ki, Ulduz Qasımın kitabları artıq bir çox ölkələrdə, xüsusilə Türkiyədə, eləcə də Rusiyada çox maraqla qarşılanır, əsərləri tərcümə olunur. Vətənsevər diaspora nümayəndələri tərəfindən Ulduz Qasımın kitabları əsasında Qarabağ həqiqətlərini aşkarlayan tədbirlər keçirilir.

Kitabda Ulduz Qasımın yaradıcılığının birinci və qismən də ikinci dövrünə aid olan əsərlərinin təhlilinə müəllif sənətkarın ilk qələm təcrübələrindən başlayır. "Ədəbi düşüncə: yazıçı və həyat" bölməsində müəllif "Sözün bahar gülləri" adlı yazısı ilə Ulduzu sözə, sənətə doğru çəkən hisslər yazıya gətirilir. Ulduz İmanova adlı gənc qızın Cəbrayıl rayonunda çıxan qəzetdəki ilk yazılarından görünən istedadı ilə tanıyırıq.

Müəllif "Mən aşığam Qarabağda" adlı bölmədə yazıçının məqalələr toplusuna diqqət yetirir. Bu bölmədəki ilk yazını hisslər, həyəcanlar fəsli adlandırır. Göründüyü kimi, başlıq müəllifin Ulduz Qasım yaradıcılığının ilk çağlarına aid düşüncələrini ehtiva edir. "Sözün Qarabağ yolu", "Həyatdan gələn səs", "Yazıdan yazıya doğru", "Düşüncə naxışları" Qarabağ mənəvi mühitinin Ulduz Qasımın yaradıcılığının ilk dövründə varlığında necə əks-səda verməsini dolğun və əhatəli şəkildə oxucuya çatdırır.

Bu kitabda bir maraqlı bölmə də diqqətimi çəkdi: "Müxbirin Ulduz debütü". O dövrün oxucularına yaxşı məlumdur ki, jurnalistikamızın formalaşmasında, inkişafında yeni dövrün tələblərinə uyğun informasiya təhlilində müxbir jurnalı özünəməxsus əhəmiyyət kəsb edirdi. Ulduz Qasım da həmin jurnalda iki maraqlı yazı ilə çıxış edir. Bu yazılardan biri o dövrün istedadlı jurnalist, publisistlərindən biri Elçin Mehrəliyevə həsr olunub. O vaxt Elçin müəllim mənim də həvəslə mütaliə etdiyim "Azərbaycan gəncləri" qəzetində baş redaktorun müavini vəzifəsini tuturdu. Elə özü də gənc olsa da, tələbə jurnalistlər arasından seçilən istedadlara xüsusi diqqət göstərirdi. Universitetin jurnalistika fakültəsinin istedadlı tələbəsi kimi Ulduz İmanova da (Ulduz Qasım) Elçin Mehrəliyev haqqında maraqlı bir yazı ilə "Müxbir" jurnalında çıxış edir. Müəllif həmin qeydləri təhlilə çəkərkən bir növ varislik təminatını yüksək dəyərləndirir. Və həmin yazını biz "Yazıçının vətən dağı" kitabında "Yazıçı Elçin Əlioğlu jurnalist olanda" adı ilə təqdim olunur. Əlbəttə, indi Elçin Əlioğlu görkəmli yazıçıdır. Kifayət qədər tanınan ədəbiyyatşünas alimdir. Mən bu qeydlərin mahiyyətini gənc Ulduzun öz ustadına münasibətinin bariz nümunəsini görürəm.

"Müxbir"in Ulduz debütü"ndəikinci yazı "Vaqif Bəhmənli qırx il əvvəl" adlanır. Bu yazıda Ulduz Qasımın gənc jurnalist və şair kimi tanınan Vaqif Bəhmənli haqqında yazdıqlarından bəhs olunur. Burada da Ulduzun bir qələm sahibi kimi nə qədər gənc olsa da, öncəgörmə istedadı özünü təsdiq edir. İndi Vaqif Bəhmənli görkəmli şairdir. "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülüb. Xələfli "Yazıçının vətən dağı"nda bu qeydlərini həm müəllifə, həm də müəllifin ədəbi qəhrəmanlarına böyük sevgi ilə qələmə alıb.

Növbəti bölmə "İztirablarların işıqlı yolu" adlanır. Bu bölmədə gənc Ulduz Qasımın "Tələbə gündəliyi" adlı sentimental povesti təhlil edilir.

Hər bir gəncin həyatında ilk məhəbbətin xüsusi təsiri olur. Gənclər ilk məhəbbətin iztriablarını heç də asanlıqla yaşamırlar. Onu da qeyd etmək lazımdır ki, çox vaxt ilk məhəbbətin yandırıcı təsiri illər boyu yaddaşda dövr edir, yara kimi sızlayır. Ancaq bütün hallarda lap uğursuz olsa belə, ilk məhəbbət həm də hər bir gəncin həyatı üçün ibrət dərsi olaraq yaddan çıxmır. İlk büdrəmələr, səhvlər insanın gələcək həyatında bu və ya digər dərəcədə düzgün yol tutmağa kömək edir. Əli Rza Xələfli "Yazıçının vətən dağı" kitabının bu hissəsində gənclik hisslərinin ülviliyi haqqında çox səmimi esselər qələmə alıb və bütün bunlar üçün əsas Ulduz Qasımın "Tələbə gündəliyi" adlı povestidir. Təkcə başlıqlara diqqət edək: "İnsan və təbiət doğmalığı", "Məqsədə doğru inamla", "Kimliyin mənəvi təqdimi", "İlk dalğanın gəlişi", "Sevgi işığında", "Vulkan oyanırsa", "Olum, yoxsa ölüm", "İstəyin son həddi"... Bu başlıqlar Xələflinin mövzuya yanaşma tərzini göstərməkdən başqa həm də onun mətnin mahiyyətini obrazlı ifadə etmək imkanlarını da göstərir.

Ulduz Qasımın çox dəyərli bir romanı var: "Qürbət Zöhrəsi" adı ilə nəşr olunub. Müəllif həmin romanın təhlilinə həsr etdiyi yazıları "Düşüncə düyünləri" bölməsində təqdim edir. Müəllifin təhlillərindən belə başa düşmək olur ki, həyat bir çox hallarda insanların qarşısına elə düyünlər çıxarır ki, bu düyünləri açmaq hər kəsə asanlıqla nəsib olmur.

Zöhrə də yenicə ali məktəbi bitirmiş bir gəncdir. Onu sevdiyi işindən, qəlbən bağlandığı peşəsindən ayıraraq ailə qurmağa vadar edirlər. Beləliklə, onun həyatı normal axarından çıxır, onu başa düşməyən adamların mühitinə düşən gənc qız hər cür haqsızlıqlara məruz qalır. Yalanlarla qarşılaşır, ən başlıcası, onu böhtanlamağa, gözdən salmağa, sındırmağa çalışırlar. Ancaq Zöhrə üçün fəth olunmayan bir qala var, bu onun vicdan qalasıdır. Qarşılaşdığı hər cür qeyri-insani münasibəti vicdanının işığında aydınlaşdırmağa cəhd göstərir. Onu tanıyanlar yaxşı bilirlər ki, Zöhrə dünya dağılsa da, yalan danışmaz, haqqı tapdamaz. Bu romanı müəllif ardıcıl olaraq izləyir. Demək olar ki, hər bir hissəyə aid təəssürat bildirir. Amma iş burasındadır ki, Zöhrə, demək olar ki, qarşılaşdığı haqsızlıqların hamısına dözməyə çalışır. Bütün varlığı ilə qurduğu ailəyə bir qadın sədaqətini qoruyub saxlayır. Baxmayaraq ki, bu ailə sözün həqiqi mənasında onun mənəviyyatını məhv etməyə çalışır. Hətta işlədiyi dövrdə qazancını əlindən alırlar. Onu hər cür haqsızlıqlara məruz qoyurlar.




Yenə də əhatəli təhlillərə keçməyə lüzum görmürəm. Müəllifin romanın təhlilinə həsr olunmuş ədəbi parçalara verdiyi adlara diqqəti yönəldirəm: "Əzablar başlanan yerdə", "İmtahan həyəcanları", "İdealın obraz kimliyi", "Buludlu səmanın günəşi", "Qürbətdə hünər sahibi", "Təzadlar arasında", "Bütövlüyün və cılızlığın savaşı", "Taylı tayını tapmasa", "Savaşın son fəsli"... Bəli, bu başlıqlar da dil açıb danışa bilir. Ardıcıl məntiqi düzüm oxucuda dərin təəssürat oyadır. Onu da deyim ki, "Qürbət Zöhrəsi" romanı yazıçının ruhun işğalına qarşı savaşı kimi qələmə alınıb. Bəlkə də Ulduz Qasım "Qürbət Zöhrəsi" əsərini insanın varlığının işğalına qarşı etiraz olaraq qələmə almasaydı, o heç Qarabağın işğalını, erməni vandallığını da yüksək yazıçı sənətkarlığı ilə bədiiləşdirə bilməzdi.

Bütün hadisələr yazıçı müşahidəsində ehtiyat xəzinədir. "Qürbət Zöhrəsi" romanının qəhrəmanını ruhən əzmək istəyənlər, onu ruhən öldürmək istəyənlər son nəticədə acı məğlubiyyətə uğrayırlar. Yazıçı Zöhrənin timsalında sağlam mənəviyyat sahibi insanın dözümünü göstərir. O, sübut edir ki, bütün işğallar əbədi ola bilməz. Nə vaxtsa, hər kəs öz haqqı uğrunda mübarizəyə qalxa biləcək: "*İnsanın mənəvi zənginliyi, yüksək əxlaqı, tərbiyəsi onun ən böyük sərvətidir. Bunu İbrahim kişinin ailəsinin timsalında aydınlığı ilə görə bilirik. Bundan sonrakı hadisələr çox sürətlə davam edir. Hiss olunur ki, Zöhrə artıq özündə kifayət qədər güc hiss edir. İşləyir, yaxşı qazanır və get-gedə oğlu və qızı da onun atasından hansı fərqli cəhətlərə malik olduğunu yaxşı görür*". Beləliklə, əsər sanki Ulduz Qasımın məşhur Qarabağ salnaməsinin proloqu təsirini bağışlayır. Biz həqiqət uğrunda savaşan, özünü, mənəviyyatını qoruyan insanı görürük. Və nəticədə bu insan təkcə özü yox, həm də əhatəsində olan sağlam düşüncəli adamların hər birini gələcək savaşlara hazırlaya bilir. Müəllifin təhlilləri əsasında maraqlı psixoloji qənaətlər diqqətimizi çəkir: "*Çürük, mənəviyyatsız həyatın axırı beləcə Bəsirənin öz həyətində və həyatında başa çatır. Bəs Bəsirəgilin, şəxsən onun özünün, Vüqarın Zöhrəyə qarşı bu qədər qəddar münasibətinin əsil səbəbi nə idi? Yazıçı bu suala aydın cavab vermir. Amma bir oxucu qənaəti kimi belə də düşünmək olar; bəli, Zöhrəni onlar istəyib almışdılar. Heç kəs məcbur verməmişdi. Ancaq onların Zöhrəni almaqda məqsədləri bu ola bilərdi ki, İbrahim kişi kəndin varlı adamı idi. Onlar Zöhrəni almaqla yağbal içində yaşayacaqlarını düşünürdülər. İbrahimin olanı-olmazı Bəsirəgilin evinə axacaqdı. Bu isə olmadı və nəticə də göz qabağındadır. Həyat elə məktəbdir ki, o özü dərs verə bilir. Ancaq dərsi götürənə verə bilir. Həyatı öyrənmək istəyənə, dərk etmək istəyənə kömək edir bu məktəb. Ulduz Qasımın "Qürbət zöhrəsi" əsəri həmişə oxunacaq.*". Əsər psixoloji dram təsiri bağışlayır. Amma oxucunun başqa qənaətləri də özünü göstərir. Burada bir insanın ruhunu qorumaq uğrunda mübarizəsi təsvir olunub. Tamahlara qarşı, qara niyyətlərə qarşı öz varlığını hifz etmək üçün o nə qədər haqsızlıqlara dözməli olur. Ulduz Qasımın yaratdığı Zöhrə obrazı tufanlardan keçən insanın taleyinin görünən tərəfidir. Amma bu əsərin mahiyyətinə bir az dərindən varanda elə erməni vandallarının da niyyətini başa düşmək olur. Onlar da Qarabağı talan etmək, özününküləşdirmək üçün gəlmişdilər. Burunları ovuldu, dəmir yumruqdan ağır zərbə aldılar.

Kitabda axırıncı hissə "Açılmayan sirrlər"in istinadı" adlanır. Bu hissədə Qarabağın tanınmış nəsillərindən birinin şəcərəsi haqqında yazılmış romanın təhlilinə aid yazılar yer alıb. Roman üçün əsas mənbə şəcərəşünas alim, yazıçı Ənvər Çingizoğlunun tədqiqatları əsas götürülüb. Bir nəslin tarixi taleyinə işıq tutan əsər çox sirlərin üstündən pərdəni götürür. Sanki bir Qarabağ ailəsinin timsalında tarixə nəzər salmaq imkanı yaradır.

Kitaba filologiya elmləri doktoru, professor Yadulla Ağazadə "Yazıçı ağrısı, tənqidçi düşüncəsi" adlı maraqlı bir "son söz" də yazıb. Professor Yadulla Ağazadə əsəri diqqətlə oxuyub. Ulduz Qasımın mənəvi mühitinin nəyə qadir olduğunu bütün aydınlığı ilə dərk edir. Elə buna görə də öz qeydlərində yazıçının yaradıcılığına əhatəli nəzər salır və Xələflinin də Ulduz Qasım yaradıcılığına münasibətinin dəyərini obyektivliklə qiymətləndirir."Son söz" ün müəllifi qeydlərini belə bitirir: "*Ulduz Qasımın digər əsərlərində də biz həyatı görə bilirik. Xüsusilə, "Qürbət zöhrəsi"ndə müəllifin "Yazıçının vətən dağı"nda yer almış dərin təhlilləri Ulduz Qasımın nə qədər həyat adamı olduğunun göstəricisidir. Həyat bütövlükdə onun üçün xammal mənbəyidir. Bir daha onu da qeyd etmək də yaxşı olar ki, Xələfli bu kitabı ilhamla yazıb. Bir məqalədə kitabın bütün məziyyətlərini ehtiva etmək burada imkandan kənardır. Əsas söz qədirbilən oxucunun, sənəti uca tutan söz bilənlərindir. "Yazıçının vətən dağı" kitabının I cildi, zənnimcə, uğuruna görə söz bilənlər tərəfindən təqdir olunacaq*". Beləliklə, ədəbi tənqidimiz və publisistikamız üçün çox dəyərli bir ədəbi faktla oxucularımı tanış etmək istədim. Bu, Əli Rza Xələflinin "Yazıçının vətən dağı" kitabının birinci cildidir. Yəqin ki, gələcəkdə ikinci cild haqqında da qeydlərimi yazmalı olaram.

***28.02.2023***